KİTABŞÜNASLIQ VƏ REDAKTOR SƏNƏTİ
elmi-nəzəri və təcrübi-metodik jurnal

№ 1 (17) 2023

# ELMİ-TEXNİKİ KİTABXANA ŞƏBƏKƏLƏRİNİN FORMALAŞMASI VƏ İNKİŞAFI

**Günay Sabir qızı Musayeva**
*Bakı Dövlət Universiteti*
*İnformasiya və sənəd menecmenti fakültəsi*
*Kitabxanaşünaslıq kafedrasının magistrantı*
*musayevag20@gmail.com*

***Xülasə:*** *Bu məqalədə respublikanın kitabxana sisteminin iri bir şəbəkəsini təşkil edən elmi-texniki kitabxanalar özləri də müstəqil bir sistem kimi formalaşmışdır. Məqalədə eyni zamanda şəbəkələrinin, onların təşkili, quruluşu, prinsipləri, yerləşməsi, fəaliyyət istiqamətləri və digər əlamətləri əks edilmişdir.*

***Açar sözlər:*** *kitabxana, elmi-texniki, maddi-texniki baza, oxucu, fərdi xidmət.*

**Gunay Sabir gizi Musayeva**

## Formation and development of scientific and technical library networks

***Abstract:*** *In this article, the scientific and technical libraries, which make up a large network of the republic's library system, have been formed as an independent system.*

***Key words:*** *library, scientific-technical, material-technical base, reader, personal service.*

**Гюнай Сабир кызы Мусаева**

## Формирование и развитие сетей научно-технических библиотек

***Резюме:*** *В данной статье научно-технические библиотеки, составляющие большую сеть библиотечной системы республики, сформированы как самостоятельная система.*

***Ключевые слова:*** *библиотека, научно-техническая, материально-техническая база, читалка, бытовое обслуживание.*

Bəşər mədəniyyətinin ən böyük nailiyyətlərindən biri olan kitablar xalqın mədəni irsinin, mənəvi sərvətinin tərkib hissəsidir, yazı və dilin, ədəbiyyat və incəsənətin, elm və texnikanın, insanların intellektual potensialının inkişafı üçün qüdrətli vasitəsi olub əhalinin vacib mədəniyyət qurumu, mənəvi sərvəti və geniş informasiya bazası olan kitabxanalar indiki dövrdə də çox mürəkkəb sosial funksiyalar tətbiq edir, xalqının mütaliə mədəniyyətinin formalaşmasına mühüm istiqamətlərlə təsir göstərir Kitabxanalar yarandığı gündən cəmiyyətin mühüm hissəsi olub və cəmiyyətimizin infrastrukturunda mühüm rol oynamaqda davam edir. Kitabxanalar çox vaxt fərdlərin informasiya ehtiyaclarını ödəməyə və gələcək nəsillərə məlumat ötürməyə kömək edir. Kitabxanaların optimal fəaliyyətini təmin etmək üçün bu müəssisələrin yaradılması, mühafizəsi və inkişafına diqqət yetirilir.

Kitabxanalar hər kəs üçün daha yaxşı gələcək yaratmağa kömək etməklə cəmiyyətdə mühüm rol oynayır. Onlar həm də milli dövlətçilik ideyalarının yayılmasında və təhsil sisteminin inkişafına köməklik göstərmək üçün vacibdir. Kitabxanalar qlobal informasiya mühitinin mühüm oyunçularıdır ki, bu da vətəndaş cəmiyyətinin yaxşı fəaliyyət göstərməsinin göstəricisidir. İnformasiyanın əmtəəyə çevrilməsində, bilik bazarının inkişafında, təhsilin səviyyəsinin yüksəldilməsində onların mühüm əhəmiyyəti var.

XX əsrin əvvəllərinə qədər Azərbaycanda müstəqil texniki kitabxanalar az idi, lakin buna baxmayaraq, məscidlərdə, mədrəsələrdə, saraylarda, elmi və şəxsi kitabxanalarda elmi-texniki tərəqqi ilə bağlı ədəbiyyat saxlanılır və istifadə olunurdu. Bu, dövrün elmi-texniki həyatı ilə ayaqlaşmaq məqsədi ilə həyata keçirilmiş, təhsil ocaqlarında, ali məktəblərdə, şəxsi kitabxanalarda elmi-texniki tərəqqini əks etdirən ədəbiyyatın qorunub saxlanmasına diqqət yetirilmişdir [1].

Respublikamızda fəaliyyət göstərən kitabxana şəbəkələrindən biri də texniki kitabxana şəbəkəsidir. Texniki kitabxanaların əsas vəzifəsi elmi-texniki ədəbiyyatı fəal təbliğ etmək, mühəndis-texniki işçilərin, istehsalat işçilərinin informasiya tələbatını ödəmək, kitabxana şəbəkəsinə metodiki dəstək göstərməkdən ibarətdir. Bundan əlavə, texniki kitabxanalar kitabxana şəbəkəsinə rəhbərlik etmək və daha da inkişaf etdirməkdə çox mühüm rol oynayır.

Texniki kitabxana şəbəkələrinin onların təşkili,quruluşu və fəaliyyət prinsipləri ümumilikdə keçmiş Sovetlər dönəminin texniki kitabxanalar sistemi ilə eyni xüsusiyyətlərini üzərində cəmləşdirir. Bu vəziyyət normal haldır, çünki Azərbaycan uzun müddət keçmiş sovet dövlətinin tabeliyində olmuşdur. Azərbaycan Respublikası 1991-ci ildə öz müstəqilliyini bərpa etdikdən sonra bütün sahələrdə olduğu kimi kitabxana işi sahəsindədə vacib addımlar atmışdır. Lakin digər sahələrdən fərqli olaraq yeniləşmə prosesi texniki kitabxanalarda ləng getdiyindən bu prosesi həyata keçirə bilməmişlər. Hazırda





sovet dövründə yaranmış elmi-texniki kitabxanalar keçmiş quruluşunu saxlamışdır. Respublika texniki kitabxana şəbəkələri aşağıdakı kimidir:

Respublika Elmi-Texniki Kitabxanası və Respublika Patent Fondunun və Respublika Standartlar Fondunun kitabxanaları Naxçıvan Muxtar Respublikası Çoxsahəli Kitabxana Mərkəzinin filiallarıdır. Çoxsahəli Kitabxana Mərkəzinə həmçinin istehsalat və elmi istehsalat birliklərinin elmi-texniki kitabxanaları, eləcə də istehsal müəssisələrinin konstruktor büroları və layihə təşkilatlarının kitabxanaları daxildir [1].

Texniki kitabxanaları başqa tip kitabxanalardan fərqləndirən üstün cəhətləri mövcuddur. Texniki kitabxana müxtəlif departamentlərdən və müəssisələrdən olan insanların daha yaxşı işləməsinə kömək etmək üçün kitablar və digər resurslar tapmaq üçün gələ biləcəkləri yerdir. Kitabxana müxtəlif insan qruplarının ehtiyaclarını ödəmək üçün kitabları və digər resursları xüsusi üsullarla təşkil edir və insanların yeni texnologiya və indiki və gələcəkdə problemlərin həllinə kömək etmək üçün ondan necə istifadə ediləcəyi haqqında məlumat tapa biləcəyi nadir yerlərdən biridir.

Texniki kitabxanaların əsas iş metodu informasiya xidməti göstərməklə elmi-texniki yeniliklərin təcrübədə tətbiqinə köməklik göstərməsidir. Elmi-texniki kitabxanalar informasiya orqanları ilə sıx əlaqədədir. Texniki kitabxanaların fəaliyyəti təkcə informasiya funksiyasından təşkil olunmamışdır. Həmçinin təhsil, mədəni-maarif funksiyaları mövcuddur. Digər kitabxanalardan fərqli olaraq texniki kitabxanalar oxucuların mədəni-texniki səviyyəsinin yüksəldilməsində mühüm yer tutur və bununla əlaqədar olaraq texniki kitabxanaların əsas funksiyaları aşağıdakılardır:

1. İnformasiya funksiyası ondan ibarətdir ki, istifadəçilərin müxtəlif istiqamətli informasiya tələbatını və sorğularını ödəyir, onların peşə ixtisaslarının yerinə yetirilməsinə köməklik göstərir.
2. Təhsil funksiyası onunla xarakterizə olunur ki, sənaye işçilərinin ümumi nəzəri səviyyələrinin yüksəldilməsi, geniş zəhmətkeş kütlələrin təhsilinə yardıım göstərməsi, fəhlələrin peşə hazırlığında, mühəndis texniki işçilərin hazırlanmasında fəal iştirak edən istehsalatdan ayrılmadan təhsil alan ali və orta ixtisas məktəblərinin tələbələrinə xidmət göstərir.
3. Elmi-texniki yeniliyə nail olmaq üçün elm və texnikanın qabaqcıl təcrübəsi haqqında sənaye işçilərinin, mütəxəssislərin tələbatının tam və operativ ödənilməsi ilə müəyyənləşdirilir.
4. Yeni texnika haqqında ədəbiyyat təbliği texniki kitabxanaların həmişə diqqət mərkəzindədir. Belə ədəbiyyatın təbliği texniki kitabxanaların əsas ictimai funksiyasını müəyyənləşdirir [1].

Qeyd edilməlidir ki, respublikamızda texniki kitabxanaların yaranması əsasən 1920-ci ildə Azərbaycan Neft Komitəsinin (Azərneftkom) təşkili ilə bağlı olmuşdur. Azərneftkom neft sənayesinə rəhbərlik etməklə bərabər texniki kitabxanaların inkişafında rol oynamış, kitabxananın komplektləşdirilməsi

məsələlərinədə diqqət yetirmişdirlər. Texniki kitabxanaların əksəriyyəti qapalı xarakter daşıyan kiçik kitabxanalardan təşkil olunmuşdur. Bu kitabxanalar kitabxana sisteminin əsas hissəsi kimi fəaliyyət göstərmişdir [1].

Aparılan tədqiqatlar göstərir ki, XX əsrin 60-ci illərində respublikamızda vahid kitabxana şəbəkəsinin ayrıca bir sahəsi kimi formalaşan texniki kitabxanaların sosial funksiyaları və vəzifələri ölkədə gedən dövlət quruculuğu vəzifələrinə və tələblərinə uyğun inkişaf etdirmişdir. Texniki kitabxanaların formalaşmasına və inkişafına ölkədə aparılan islahatların vacib rolu olmuşdur.

Əməkdar elm xadimi, professor Abuzər Xələfov öz çıxışında bu kitabxananın 70 il müddətində keçdiyi şanlı tarixi yola nəzər salmış, onun fəaliyyətini xalqımızın mədəni tərəqqisi tarixində, elmi-texniki fikrin inkişafı və formalaşması sahəsini yüksək qiymətləndirmişdir.

XX əsrin 20-ci illərində əsası qoyulmuş bu kitabxana respublikamızın mədəni inkişafında, elmi-texniki fikrin təbliğində, ziyalıların yetişdirilməsində əhaliyə kitabaxana xidmətinin təşkilində xüsusu xidmətlər göstərmiş,minlərlə oxucunun sevimli məkanına çevrilmişdir. Oxucu nəsilləri bir-birini əvəz etdikcə kitabxana da daim yeniləşmə prosesi getmişdir. Geniş oxucu kütləsinin elmi ictimaiyyətinin ziyalıların dərin hörmətini qazanan yüksək humanist və demokratik prinsiplərə xidmət edən Respublika Elmi-Texniki Kitabxanası fəaliyyət göstərdiyi müddət ərzində böyük tarixi yol keçmiş, kitabaxana onun maddi texniki bazasının möhkəmlənməsinə səbəb olmuşdur.

Sənaye və mədəni maarif müəssisələrinin fəaliyyətində maddi texniki baza mühüm əhəmiyyət kəsb etdiyi kimi kitabxanaların fəaliyyətində də vacib rol oynayır. Belə ki, maddi texniki baza hər il müəssisənin işini təşkili və fəaliyyətinin davam etdirilməsinin əsas elementidir. Kitabxana müəssisələrinin fəaliyyətinə diqqətlə nəzər saldıqda bu fikir bir daha təsdiqini tapır. Yəni güclü maddi texniki baza malik olmayan müasir kitabxananın müvəffəqiyyətlərindən danışmaq mümkünsüzdür. Maddi-texniki bazanın kitabxananın əsas struktur elementlərindən biri olması haqqında elmi fikir son dövrlərdə formlaşmışdır. Aydın məsələdir ki, bu fikr birmənalı qarşılanmır. Bu yaxınlara qədər Amerika kitabxanaşünasları o cümlədən kitabaxanaşünaslıq sahəsində bir çox qiymətli monoqrafiyaları və nəzəri fikirləri olan C.X.Şira kitabxananın quruluşunda üç elementin (sənəd, oxucu və kitabxanaçı) olduğunu qeyd etmiş, bu quruluşu üç bucaqla müqayisə etmişdir. Zaman keçdikcə kitabxana işi sahəsində əldə olunmuş yeniliklər, nəzəri və praktiki dəyişikliklər, informasiya texnologiyalarının yaranması və inkşafı, kompüter texnikasının tətbiqi maddi-texniki bazanın kitabxana sahəsində olduqca əhəmiyyətli rola malik olduğunu sübut etdi [3].

Əməkdar elm xadimi, professor Abuzər Xələfovun “Kitabxanaşünaslığa giriş” adlı dərsliyində isə maddi-texniki baza ilə bağlı fikirləri, maddi-texniki bazanın tərkibi və funksiyaları ilə bağlı əsas məsələləri qeyd etmişdir.Maddi-





texniki bazanın tərkibinə kitabxananın binası, avadanlığı, kitab fondu, mebeli, kitabxanadaxili nəqliyyat, kitabxana proseslərinin avtomatlaşdırma və mexanikləşdirmə vasitləri, surətçıxartma və çoxaldıcı texnika, enerji ehtiyyat hissələri, rabitə vasitələri kompüter və s daxildir. Alim göstərir ki, maddi-texniki baza funksiyalarına görə 3 qrupa bölünür:

1. Kitabxana binası, otaqlar və qurğular;
2. Kitabxana fəaliyyətinin müxtəlif növlərini vahid prosesdə birləşdirən texniki kommunukasiya vasitələri;
3. Texniki avadanlıqlar [4].

Dünyanın inkişaf etmiş ölkələrində belə kitabxanalara, xüsusi ilə iri milli və dövlət kitabxanalarına, elmi-texniki kitabxanalara ölkənin vahid elmi-texniki informasiya ehtiyyatları kimi baxılır, dövlət tərəfindən mühafizə edilir və qorunur.

Məlumdur ki,elmi-texniki kitabxanalar sistemində Respublika Elmi-Texniki Kitabxanasının olduqca əhəmiyyətli rola malikdir. Kitabxananın fəaliyyətinə müstəqillik illərindən başlayarq nəzər salsaq görərik ki, yüksək səviyyədə inkşaf etməmişdir. Bunun səbəbləri ilk növbədə ölkə və xaricdə çap olunan kitabların (rus və ya xarici dillərdə), elmi-texniki ədəbiyyatların alınmaması ilə bağlı olmuşdur. Hazırda kitabxana Azərbaycan Respublikasında fəaliyyət göstərən ən böyük elmi-texniki kitabxanalardan biridir.Kitabxananın strukturu 2 istiqamətdən ibarət olmaqla fəaliyyət göstərir:

1. RETK-ın şöbə və sektorları;
2. RETK-ın Gəncə filialı.

Hazırda Əqli Mülkiyyət Agentliyinin tabeliyində fəaliyyət göstərən kitabxana respublikanın ən böyük kitab saxlayıcılarından biri olmaqla bərabər, ölkəmizdə fəaliyyət göstərən elmi-tədqiqat və layihə institutlarına, həmçinin elm və texnika sahəsində tədqiqat aparan şəxslərə, ali məktəb tələbələrinə, müəllimlərə, kitabaxana-informasiya xidməti göstərir. Kitabxana öz tarixi, mədəni rolu, fondunun zənginliyi və unikallığı ilə seçilir. Kitabxananın fondunda normativ texniki sənədlər, patent ədəbiyyatı, xarici ölkələrin jurnalları, sənaye məmulatı kataloqları, elmi texniki icmallar, elm-texniki hesabatlar üzrə jurnallar və s. mühafizə edilir. Qeyd edək ki, müasir dövrdə kitabxananın infrastrukturu və maddi-texniki bazası əvvəlki illərlə müqayisədə mükəmməl hala gətirilmiş və gücləndirilmişdir.

Kitabxana fondunun məlumat-axtarış sistemini kataloqlar, kartotekalar, elektron kataloq, məlumat biblioqrafik nəşrlər və s. təşkil edir. Bundan başqa kitabxananın Komplektləşdirmə şöbəsi fondun elmi-texniki xarakterli ədəbiyyatlar ilə təmin edilməsində başlıca rol oynayır. Olduqca zəngin kitablara malik olan fond yeni texniki ədəbiyyatlarla yanaşı oxucuların, mütəxəsislərin kitabxanaya bağışladığı kitablar əsasında da komplektləşdirilir [2].

Kitabxanada oxuculara xidmətin ən mühüm formalarından biri də KAA-dır. Elmi işçilərin tədqiqat işləri ilə bağlı sorğuların ödənilməsində KAA xidməti mühüm yer tutur. Bu xidmət növü elmi işçilər üçün nəzərdə tutulmuş asan xidmət üsuludur. Zaman kecdikcə bu üsulun yeni forması kimi elektron poçt xidmətindən istifadə olunmağa başlanıldı. Elektron poçt xidməti elmi işçilərin, texniki işçilərin, mütəxəssislərin dünya kitabxanalarının oxucusuna çevrilməsinə şərait yaratdı. Elektron poçt xidməti vasitəsi ilə oxucular vacib olan suallarını kitabxana əməkdaşlarına çatdıra bilər.

Kitabxanada tətbiq edilən xidmət üsullarında biri kimi KAA bölməsi öz işini respublikamızın kitabxana fondlarından qarşılıqlı istifadə edilməsi əsasında qurmuşdur. KAA vasitəsilə kitabxana oxucuların informasiya tələbatını ödəyir.

Kitabxanada tətbiq edilən xidmət üsullarında biri də fərdi xidmətdir. Fərdi xidmətdə oxucunun xüsusiyyətləri nəzərə alınaraq, fərqli yanaşılır. Oxucu kitabxanadan lazım olan kitabları həm oxu zalından, həm də kitab rəfindən əldə edə bilər. Bundan əlavə oxucuların sorğu və tələbatlarını təmin etmək üçün soraq məlumat fondu kataloq və kartotekalar sistemi mövcuddur. Kitabxanada istifadə olunan kataloq və kartotekalar sisteminə baş əlifba katoluqu; sistemli kataloq; əlifba predmet göstəriciləri kataloqu; yeni kitablar katoluqu; rus və Azərbaycan dilində sistemli kataloq; dövrü nəşrlər kataloqu; ardı davam edən nəşrlərin kataloqu; dissertasiya və aftoreferatların kataloqu və s. daxildir.

## ƏDƏBİYYAT

1. *Xələfov A.A. Kitabxanaşünaslığa giriş: Dərslik. I hissə. - Bakı: Bakı Universiteti Nəşriyyatı, 2001.*

2. *Məmmədov M.Ə. Azərbaycanda texniki kitabxanaların inkişafı: Monoqrafiya. - Bakı: "Avropa" nəşriyyatı, 2016.*

3. *Xələfov A.A. Kitabxanaşünaslığın tarixi və metodologiyası: Dərslik. – Bakı: Bakı Universiteti Nəşriyyatı. – Bakı, 2014. - 512 s.*

4. *Məmmədov M.Ə. Müstəqillik illərində Respublika Elmi-Texniki Kitabxanasının maddi-texniki bazasının vəziyyəti // Kitabxanaşünaslıq və informasiya: Elmi nəzəri və praktiki jurnal. - 2015. - №1 (16), s.63-65.*